*3 dekabr Ümumdünya Əlillər Günüdür*

# Əlillərə qayğı dövlət səviyyəsində göstərilir

Ölkəmizdə əlillər dövlət qayğısı ilə hər tərəfli əhatə olunub. Dövlət tərəfindən onların sosial müdafiəsinə xüsusi qayğı və diqqət yetirilir. Bu barədə bir sıra dövlət əhəmiyyətli proqramlar həyata keçirilmişdir. Əlillər mənzil, maşın, əlil arabaları ilə təmin olunub. Dövlət vəsaiti hesabına müxtəlif müalicə və bərpa ocaqlarında kurslar keçirlər.

Hazırda dünyada xeyli əlil insan var. Təkcə bizim respublikamızda onların sayı 300 minə yaxındır. Onların bir hissəsi İkinci Dünya müharibəsinin, Qarabağ müharibəsinin nəticəsində əlil və şikəst olmuşlar. Əlillər daha çox sosial müdafiyəyə, mənəvi dəstəyə möhtac olan insanlardır. Bu kateqoriyadan olan insan eyni zamanda doğmalarından və yadlardan isti münasibət, mərhəmət və qayğı umurlar. Məlum məsələdir ki, əlillik müxtəlif yollarla yaranır. Anadangəlmə, yol-nəqliyyat, istehsalat qəzaları və xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik növləri mövcuddur. Onlar fiziki cəhətdən tam olmasalar da, onlarda nəcib ürək, saf insani keyfiyyətlər, yüksək bilik və bacarıq qabiliyyəti vardır.

İndi beynəlxalq aləm əlil və şikəstlərə qayğını daha da artırıb. Bu məqsədlə onların hüquqlarının qorunması sahəsində bir sıra vacib tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında ən mühümü BMT tərəfindən 1983—1992-ci illərdə həyata keçinrilmiş Əlillər Onilliyidir. 1992-ci il oktyabrın 14-də Onilliyin başa çatması münasibətilə BMT Baş Məclisi dekabrın 3-nü «Əlilliyi olan insanların Beynəlxalq Günü» kimi qeyd olunması haqqında Bəyannamə qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik probleminin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır.

Son illər rayonumuzda da əlil və şikəst kateqoriyadan olan insanlara qayğı göstərmək gündəlik məsələlərdən birinə çevrilib. Rayon icra hakimiyyətinin təşəbbüsü ilə hər il əlillər günü keçirilir. Onların qayğıları və ehtiyacları öyrənilir, lazımi köməkliklər göstərilir. Əlillər yaşayış mənzilləri, əlil arabaları, minik avtomobilləri ilə təmin olunur. Hazırda rayon üzrə 60 nəfərdən çox əlil minik avtomobili ilə təmin edilmişdir. Əhalinin sosial müdafiəsi mərkəzi tərəfindən ildə onlarla əlil müalicə və bərpa kurslarından keçmək üçün göndərişlə müalicə müəssisələrinə yola salınır.

**«Qəbələ».**

# Tariximizi öyrənək və öyrədək

Qəbələ Turizm və Otelçilik üzrə peşə Tədris Mərkəzi Respublikamızda bu sahədə fəaliyyət göstərən müasir tipli tədris müəssisəsidir. Mərkəzin yetirmələri turizm və otel obyektlərində müvəffəqiyyətlə çalışırlar. Yaxşı haldır ki, məktəbdə şagirdlərə ixtisasları üzrə təlim və tədrislə birlikdə ölkəmizin, rayonumuzun tarixi, təbiəti, görkəmli şəxsiyyətləri barədə də geniş və hərtərəfli biliklər verilir. Bu, təbiidir. Çünki, turizm üzrə təkcə ali dərəcəli deyil, orta və aşağı dərəcəlit mütəxəssislərində tariximizi, təbiətimizi öyrənməsi vacibdir. Xaricdən gələn hər hansı bir turistin, qonağın xidmət işçisinə tariximizlə, təbiətimizlə, görkəmli şəxsiyyətimizlə əlaqədar suallarının cavablandırılmasında çətinlik çəkən mütəxəssis məqbul işçi sayıla bilməz.

Buna görə də Qəbələ Turizm və Otelçilik üzrə Tədris Mərkəzində şagirdlərin tariximiz, təbiətimiz, mədəniyyətimiz, görkəmli şəxsiyyətlərimiz barədə məlumatlı olması üçün tədbirlər həyata keçirilir.

Bu yaxınlarda Tədris Mərkəzinin bir qrup şagirdinin Qəbələ şəhərindəki Heydər Əliyev mərkəzinə və 9 əsr Qafqaz Albaniyasının paytaxtı olmuş Qədim Qəbələ şəhərinin qalıqları yerləşən əraziyə ekskursiyaları təşkil olunmuşdur.

İlk öncə şagirdlər ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatların, sənədlərin toplandığı Heydər Əliyev Mərkəzində olmuşlar. Şagirdlərin burada ümummilli lider Heydər Əliyevin həyat yolunu, siyasi fəaliyyətini əks etdirən fotolarla, sənədlərlə tanış olmuş, dahi rəhbərin həyatından bəhs edən sənədli filmə tamaşa etmişlər. Sonra şagirdlər qədim Qafqaz Albaniyasının paytaxtı olmuş, qədim Qəbələ şəhərinin qalıqlarına tamaşa etmək üçün həmin əraziyə yola düşmüşlər. Burada onlar Qafqaz Albaniyasının tarixi, bu günkü Azərbaycanın tarixində rolu və yeri barədə məlumatlandırılmışlar. Onlar eyni zamanda yenicə aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri ilə yaxından tanış olmuşlar. Sonra şagirdlər Qədim Qəbələ ərazisindən arxeologi qazıntılar zamanı əldə olunmuş tapıntıların saxlanıldığı muzeyə baş çəkmişlər. Muzeydə qədim zinət əşyaları, saxsı qablar, küplər, əmək alətləri və sair maddi-mədəniyyət nümunələri saxlanılır ki, bunlar qədimdə insanların məişətinin, həyat tərzinin necə təşkil olunduğu barədə təsəvvür əldə etmək üçün çox qiymətlidir.

Qədim Qəbələ şəhərinin qalıqlarının olduğu əraziyə və muzeyə ekskursiya nəticəsində şagirdlər ölkəmizin necə qədim və möhtəşəm bir tarixə malik olduğunun bir daha əyani şahidi oldular.

**Qüdrət SƏMƏDOV.**

# Maraqlı tədbir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidməti Orqanı 2011-ci ildən başlayaraq rayonların ərazisində fəaliyyət göstərən orta məktəblərdə yuxarı sinif şagirdlərini əmək bazarında olan movcud vəziyyətlə tanış etmək , onlara peşə seçimində köməklik göstərmək məqsədi ilə peşəyönümü işinə həsr edilmiş konfransların kecirilməsi ilə bağlı yerli orqanlara tapşırıqlar vermişdir. Peşəyönümü məsləhətləri ilə bağlı rayon ərazisində keçirilən seminar və məşğələlərin davamı olaraq bu günlərdə Zarağan kənd 1 saylı tam orta məktəbdə məktəb direktoru, müəllimlərin və IX-XI sinif şagirdlərinin iştirakı ilə “Gənclərin səmərəli məşğulluğunun təmin olunmasında peşəyönümü işinin təşkili” mövzusunda konfrans keçirilmişdir. Konfransda Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Pərvin Məmmədov, rayon təhsil şöbəsinin nümayəndəsi Kamran



Abışov iştirak edirdi. Konfransı giriş sözü ilə Məşğulluq Mərkəzinin direktoru Elxan Səlimov açmışdır. Konfransda E. Səlimov məruzə edərək ümummilli liderimiz Heydər Əliyevin düzgün və məqsədyönlü kadr siyasətinin möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsindən danışmış, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununun bəzi maddələri haqqında, eləcə də mərkəzlərdə işsiz və işaxtaran vətəndaşlara göstərilən xidmətlər barədə məlumat vermiş, əmək bazarında mövcud vəziyyəti təhlil edərək işsizliyi yaradan amilləri qeyd etmiş və bu əsasda seminar məşğələlərin keçirilməsinin məqsədini və zəruriliyini açıqlamış, “peşəyönümü” , “peşələrin təsnifi”, “peşələrin sinifləri”, “peşələrin insanlara verdiyi tələblər”, “peşə maraqları və meyilləri”, peşə və ixtisaslarla əlaqədar geniş məlumat vermişdir. Mərkəzin direktoru rayon ərazisində fəaliyyət göstərən müəssisə və təşkilatlarda kadrlara olan faktiki tələbat və gələcəkdə rayon iqtisadiyyatının inkişafna uyğun olaraq formalaşacaq tələbat barədə proqnoz verərək şagirdlərə peşə seçimində yanılmamağı tövsiyə etdi.

Təhsil şöbəsinin nümayəndəsi K. Abışov, Zarağan 1 saylı tam orta məktəbin direktoru M. Hidayətova və digərləri çıxış edərək tədbirin əhəmiyyəti, bazar iqtisadiyyatı şəraitində gənclərə peşə seçimində edilən köməklik və bunun ölkə iqtisadiyyatının inkişafına verəcəyi töhfələrdən danışdılar.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırıldı.

**Şöhrət SÜLEYMANOV.**

## ÜDM istehsalı keçən ilin eyni dövrü ilə müqayisədə artıb

2013-cü ilin 10 ayı ərzində istehsal edilmiş ümumi daxili məhsulun (ÜDM) həcmi keçən ilin eyni dövrü ilə müqayisədə 5,7 faiz artaraq 47,6 milyard manata çatmışdır.

ÜDM-nin 64,1 faizi istehsal, 29,6 faizi isə xidmət sahələrinin payına düşüb. İqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş ÜDM-in həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1 faiz, qeyri-neft sektorunda isə 9,8 faiz artmışdır.

Ümümdaxili məhsulun həcmində yaradılmış əlavə dəyərin 46,3 faizi sənayenin, 5,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı ilə bağçılığın, 12,1 faizi tikintinin, 7,3 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsinin, 5,2 faizi nəqliyyat və anbar təsərrüfatının 2,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşənin, 1,7 faizi ifnormasiya və rabitə xidmətlərinin, 13,3 faizi isə sosial və digər xidmətlər sahəsində fəaliyyət göstərən müəssisə və təşkilatların payına düşmüşdür.